# İqlim dəyişikliyi bütün ölkələrə təsir göstərir

**"COP29 ilə bağlı ya hər kəs birlikdə fəaliyyət göstərməlidir, ya da uğursuzluq qaçılmazdır".**

Bunu energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov bildirib. Onun sözlərinə görə, COP29-da gündəmə gətiriləcək əsas məsələlərdən biri məqsədlərə nail olmaq yolunda maliyyələşmə məsələsidir.

"Təkliflərdən biri belədir ki, maliyyələşmə məsələsi ilə bağlı yeni model müəyyənləşdirilməlidir. Biz COP29-un bu istiqamətdə çox əlverişli bir fürsət olacağına inanırıq. Azərbaycan tərəfi müxtəlif tərəflərin geniş şəkildə müzakirələr aparmaları üçün şəffaf bir mühit yaratmağı qarşıya məqsəd qoyub. Ümumilikdə, COP29-un gündəliyinə 14 məsələ daxil edilib. Azərbaycan orada "yaşıl dəhliz"ləri və saxlanma anbarlarının yaradılması, su çatışmazlığı məsələlərini gündəmə gətirilməsini önəmli sayır. İqlim dəyişikliyi bütün ölkələrə təsir edir. Biz milli öhdəliklərə sadiq olmalıyıq. Ona görə ki, bu öhdəliklərin hər biri çox önəmlidir",–deyə E.Soltanov bildirib.




**XQ**

Xalq qəzeti .- 2024.- 28 iyul (№ 158).- S.8.